# ეროვნული სასწავლო ოლიმპიადა
# გეოგრაფია
# (აზერბაიჯანულ ენაზე)
# II ტური
# 2025-2026 წწ.

- *Seçimli cavabları olan sual – tapşırıq № 1-5*

| Təlimat |
|---|
| Hər suala dörd ehtimal cavab verilir. Onlardan ancaq biri düzgündür. Seçilmiş cavabı cavablar vərəqinə bu qaydada keçirin: cavabların müvafiq xanasına X işarəsi qoyun. Başqa heç bir işarə qoymayın, üfüqi yaxud şaquli xətlər, dairəyə almaq və s. elektron proqram tərəfindən qəbul olunmur. Əgər cavablar vərəqində göstərilmiş cavabı düzəltmək istəyirsinizsə, X işarəsi qoyduğunuz xananı bütövlükdə rəngləyin, sonra cavabın yeni variantını işarə edin (yeni xanada X işarəsi qoyun). Düzəltdiyiniz cavabı təkrarən seçmək qeyri-mümkündür. Hər tapşırığa 1 bal verilir. |

**(1 b.) 1. Fotoda göstərilən Arizona kraterinin yaranma səbəbi nədir?**



ა) vulkan püskürməsi;
ბ) faydalı qazıntıların hasilatı;
გ) zəlzələ zamanı çökmə;
დ) meteorit düşməsi.

**(1 b.) 2. 1920-1930-cu illərdə Gürcüstanda sitrusların kütləvi kultivasiyası harada başlamışdı?**

ა) İori yaylasında;
ბ) Kolxeti ovalığında;
გ) Raça qobusunda;
დ) Alazani düzənliyində.

**(1 b.) 3. Afrikanın kontur xəritəsində qeyd olunan sərhəd hissələrindən hansı "həndəsi sərhəd" nümunəsidir?**




ა) A
ბ) B
გ) C
დ) D

**(1 b.) 4. Prometey mağarasında daimi +14°C temperatur onun təbii proseslərində necə əks olunur?**





ა) çöküntü-damcı əmələgəlmələrinin qorunub saxlanmasına dəstək verir;
ბ) süxurların parçalanmasına və zəlzələlərin yaranmasına səbəb olur;
გ) mağarada oksigen miqdarını və havanın şəffaflığını azaldır;
დ) əhəngdaşıların mexaniki yolla parçalanması prosesini artırır.

(1 b.) 5. Aşağıdakı şəkillərdən üçü Gürcüstanda çəkilib. Hansı şəkil Gürcüstanda *çəkilməyib*?













➢ *Uyğunluğun müəyyən edilməsi – tapşırıq № 6-8*

| Təlimat |
|---|
| Tapşırıqda verilmiş iki siyahı arasında uyğunluğu müəyyən edin. Cavabı cavablar vərəqində verilmiş cədvələ yazın. Hər hərfin altında müvafiq rəqəmi yazın. Balların miqdarı konkret tapşırıq üzrə müəyyən edilir. |

**(8 b.) 6. Uyğunluğu müəyyən edin (Nəzərə alın ki, cavab *təkrarlanmır*):**

| | Foto | | Yayıldığı sahənin xəritəsi |
|---|---|---|---|
| ა |  Pinqvin | 1 |  |

| | | | |
|---|---|---|---|
| ბ | <br>Koala | 2 |  |
| ბ | <br>Ceyran | 3 |  |
| დ | <br>Dinqo | 4 |  |
| ე | <br>Panda | 5 |  |

| | | | |
|---|---|---|---|
| ვ |  Timsah | 6 |  |
| ზ |  Puma | 7 |  |
| თ |  Kazuar | 8 |  |

| ა | ბ | გ | დ | ე | ვ | ზ | თ |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | |

(6 b.) 7. Uyğunluğu müəyyən edin (Nəzərə alın ki, cavab *təkrarlanmır*):

| | Səyyah | | Şəxsiyyət haqqında məlumat |
|---|---|---|---|
| ა |  İbn-Bətutə | 1 | Hind-Çinə, Hindostana, Ərəbistan yarımadasına və Cənubi Afrikanın sahillərinə doğru yeddi genişmiqyaslı hərbi-ticarət dəniz ekspedisiyasına rəhbərlik etmiş Ming sülaləsinin görkəmli səyyahı, dənizçisi və diplomatı. |
| ბ |  Freya Stark | 2 | Avropalılardan ilk olaraq Atlantik okeanı vasitəsilə Sakit okeana səfər etmiş Böyük Coğrafi Kəşflər dövrünün görkəmli nümayəndəsi. |
| ბ |  Ceyms Kuk | 3 | XIV əsrdə o, Afrika və Asiyaya səyahət edərək 30 il ərzində təxminən 120 000 kilometr məsafə qət etmiş, bir çox mədəniyyəti təsvir etmiş və ilkin olaraq sənədləşdirmişdir. |
| დ |  Marko Polo | 4 | Dəniz tədqiqatlarında inqilab yaratmış, üç dəniz səyahətinə rəhbərlik etmişdir. Havay adalarında yerli əhali ilə münaqişədə həlak olmuşdur. |

| | | | |
|---|---|---|---|
| ე | <br>Çjen Xe | 5 | Onun uzun illərdə Asiyaya səyahətlərinin nəticəsi olaraq yazdığı kitabın Böyük Coğrafi Kəşflər dövrünün dənizçiliyinə, xüsusilə də Xristofor Kolumba böyük təsiri olmuşdur. |
| ვ | <br>Fernando Magellan | 6 | Bu səyyah və yazıçı gender və mədəni maneələri pozdu; onun tədqiqatları xüsusilə də ətraflı və humanist müşahidələrinə görə dəyərlidir. O, uzun bir ömür sürüb və 100 yaşında vəfat edib. |

| ა | ბ | გ | დ | ე | ვ |
|---|---|---|---|---|---|
| | | | | | |

**(8 b.) 8. Uyğunluğu müəyyən edin (Nəzərə alın ki, cavab *təkrarlanmır*):**

| | Kutaisi şəhərindən azimut | | Yaşayış məntəqəsi |
|---|---|---|---|
| ა | $3^0$ | 1 | Poti |
| ბ | $162^0$ | 2 | Ambrolauri |
| გ | $303^0$ | 3 | Batumi |
| დ | $54^0$ | 4 | Mestiya |
| ე | $262^0$ | 5 | Qori |
| ვ | $106^0$ | 6 | Soxumi |
| ზ | $234^0$ | 7 | Axaltsixe |
| თ | 180° | 8 | Adigen |

| ა | ბ | გ | დ | ე | ვ | ზ | თ |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | |

➢ *Məlumatın təhlili – tapşırıq № 9-11*

**Təlimat**

Tapşırıqda verilmiş informasiyanı təhlil edin və suallara cavab verin. Cavabı cavablar vərəqində ayrılmış müvafiq yerə yazın. Balların miqdarı konkret tapşırığa görə müəyyən edilir.

**(4 b.) 9. İllüstrasiyanı təhlil edin və suallara cavab verin:**



**(1 b.) 9.1.** Şəkildə hansı faydalı qazıntının daşınması göstərilib?

ა) neftin;

ბ) əhəng daşının;

c) kömürün;

d) gipsin.

**(3 b.) 9.2.** Təhlükəsizlik məqsədilə, fotoşəkildə göstərilən faydalı qazıntıların müvafiq üsulla daşınması zamanı nə etmək vacibdir? (Fotoşəkildə göstərilən konkret tədbiri qeyd edin) və bu tədbirin həyata keçirilməsinin iki səbəbini göstərin.

(4 b.) 10. Avstriya Alplarının dağətəyi ərazisində quruyan (müvəqqəti) Yaşıl Göl (Grüner See) yerləşir və onda su yalnız bir neçə həftə yığılır, əsasən may-iyun aylarında. Adlandırın və izah edin ki, hansı coğrafi-morfoloji və iqlim amilləri bunun yaranmasına səbəb olur.

Grüner See-s iqlim diaqramı (orta temperatur və yağıntı)












**(5 b.) 11. Mətni təhlil edin və suallara cavab verin:**

Argentina dünyanın ən böyük ölkələrindən biridir. Cənub yarımkürəsində yerləşir və cənub tropiklərindən Pataqoniyanın buzlaq landşaftlarına qədər uzanır. Argentina rəngarəng coğrafiyası ilə tanınır: qərbdə And dağları, mərkəzdə bərəkətli Pampalar və cənubda geniş Pataqoniya düzənlikləri.

Ölkə Avropa və yerli təsirlərə əsaslanan fərqli bir mədəni mənşəsi ilə seçilir. Paytaxt Buenos-Ayres memarlığı və mədəni həyatına görə tez-tez "Cənubi Amerikanın Parisi" adlanır. Argentina tanqonun vətəni və eləcə də yüksək keyfiyyətli mal əti, ehtiraslı futbol azarkeşləri və İquasu şəlaləsi və Perito Moreno buzlağı kimi təbii möcüzələri ilə tanınır.

İqtisadiyyatı kənd təsərrüfatı, mədənçilik və sənayeyə əsaslanır, lakin ölkədə inflyasiya və xarici borcla bağlı çətinliklər yaşanır.







**(1 b.) 11.1.** Argentina ərazisinə görə Cənubi Amerikada neçənci yer tutur?

**(1 b.) 11.2.** Asiya və Avropa qitələrindəki pampaslara uyğun təbii zona necə adlanır?

**(2 b.) 11.3.** Hansı iki millətdən olan avropalı emiqrantlar yerli mədəniyyətə xüsusilə böyük təsir göstərmişlər?

**(1 b.) 11.4.** Argentinanın ticarət saldo göstəricisinin nəyə bərabər olduğunu hesablayın?